# “Nəğmə dolu ürək” Göyçayda

## *İsgəndər Coşqunun əsərləri yeni əlifbada çap olunub*



Coşqunun əsərlərinin cüzi hissəsinin (özü də kiril əlifbası ilə) işıq üzü gördüyü məlum oldu: “Rayon mərkəzi kitabxanasında belə, dillər əzbəri olan şeir və nəğmələrin, aktual poema və pyeslərin müəllifi olan İsgəndər Coşqunun, demək olar ki, heç bir kitabı yox idi. Odur ki, biz onun əsərlərinin külliyyatını hazırlayıb nəfis şəkildə çap etdirməyi qərara aldıq. AVCİYA-nın əməkdaşları müxtəlif mənbələrdən gərgin axtarışlar sayəsində ədibin yaradıcılıq nümunələrini toplayaraq, 576 səhifəlik fundamental toplu hazırladılar. Sənətkarın ruhunu şad etməyimizdən son dərəcə məmnunuq”.

Elxan Süleymanovun “Şair dostum İsgəndər Coşqun haqqında” adlı “Ön söz”ü ilə başlayan kitab şairin müxtəlif mövzu və janrlı əsərlərini əhatə edir. Külliyyat “Nə xoş saatda gəldin sən bu cahana, oğlum!”, “Mən sənsiz qanadları qırılmış bir qartalam”, “Hər vətən deyəndə mən”, “Yaxın, uzaq ellər”, “Ana laylası, ata qayğısı”, “Ömür yolu” kimi yarımbaşlıqlarda əhatə olunmuş 103 şeirdən ibarət “Şeirlər” bölümündə; 39 mətndən ibarət “Nəğmələr” bölümündə, “Əmək qəhrəmanlarına”, “Ağ zənci”, “Gəmidə söhbət” adlı əsərlərdən ibarət “Poemalar” bölümündə, “Söhrab və Rüstəm”, “Ana laylası”, “Çal, oyna”, ”Açıl, bənövşəm, açıl” adlı mətnlərdən ibarət “Pyeslər” bölümlərində təqdim edilib.

Kitabda filologiya elmləri doktoru, professor Asif Hacılının “Nəğmə dolu ürək aşiqiyəm mən: İsgəndər Coşqunun sənət dünyası”, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının ədəbi hissə müdiri, Əməkdar mədəniyyət işçisi Rafiq Rəhimlinin “Sabaha səpilən nur”, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artisti Gülüstan Əliyevanın “Gəlin qayası” operasında qadın obrazlarının musiqi xasiyyətnaməsindən” adlı məqalələri dərc olunub.

Kitabın maraqlı bir bölməsi də İsgəndər din, şairin qızı – İsveçin Malmö şəhərindəki “Vahid Azərbaycan dərnəyi”nin rəhbəri Aygün Coşqunun, nəvəsi Zərifə Hümbətzadənin xatirələri dərc edilib.



Fundamental toplunun tərtibçisi və redaktoru Asif Hacılı, məsul redaktoru Əməkdar jurnalist Fuad Babayev, bədii redaktoru İrina Muxtarovadır.

Görkəmli şair-dramaturqun əsərlərini oxucuya qaytaran, onun həyat və fəaliyyəti haqqında zəngin təsəvvür yaradan toplunun Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin, tanınmış mədəniyyət xadimlərinin, rayon ictimaiyyətinin iştirakı ilə keçən təqdimat mərasimini RİH başçısının müavini Zivər Zeynalova açıb. Sonra kitabın ideya müəllifi, təşəbbüskarı və naşiri Elxan Süleymanov şair dostu haqqında xatirələrini, şairin həyat və yaradıcılığı ilə bağlı müşahidələrini tədbir iştirakçıları ilə bölüşüb.

Digər natiqlər – Asif Hacılı, Tariyel Qasımov, Rafiq Rəhimli, Ədalət Məmmədov, Ətraf Sərraf, Adil Məmmədli, Elşad Məmmədli, şairin ailə üzvləri kitabın məziyyətlərindən danışıb, onun çapını təqdir ediblər. Gənc ifaçılar İsgəndər Coşqunun sözlərinə bəstələnən nəğmələri, qiraətçi məktəblilər şairin şeirlərini səsləndiriblər.

Sonda tədbir iştirakçılarına “Nəğmə dolu ürək” kitabı hədiyyə olunub.

***İlqar HƏSƏNOV***
***XQ***

Xalq qəzeti.- 2024.- 23 aprel, № 81.- S.10.